# TƏRBİYƏ MƏSƏLƏLƏRİ
# ВОПРОСЫ ВОСПИТАНИЯ
# ISSUES OF UPBRİNGİNG

**UOT 37.0**

***Şəfəq Müzəffər qızı Məmmədova***
*Azərbaycan Respublikası Təhsil İnstitutunun elmi işçisi*
*https//orcid.orq.0000 – 0001 – 8279 – 5844*

## SİNİFDƏNXARİC TƏDBİRLƏRİN GƏNCLƏRİN MƏNƏVİ TƏRBİYƏSİNƏ TƏSİRİ

***Шафаг Музаффер гызы Мамедова***
*научный сотрудник*
*Института Образования Азербайджанской Республики*

## ВЛИЯНИЕ ВНЕКЛАССНЫХ МЕРОПРИЯТИЯХ НА НРАВСТВЕННОЕ ВОСПИТАНИЕ МОЛОДЕЖИ

***Shafag Muzaffar Mammadova***
*researcher at the*
*Institute of Education of the Republic of Azerbaijan*

## THE INFLUENCE OF EXTRACURRICULAR ACTIVITIES ON THE MORAL EDUCATION OF YOUTH

**Xülasə.** Məqalədə müasir Azərbaycan gənclərinin həyatında milli dəyərlərin və mənəvi keyfiyyətlərin mühüm əhəmiyyət kəsb etdiyindən bəhs edilir. Bunun üçün orta ümumtəhsil məktəblərində yuxarı sinif şagirdləri ilə təşkil edilən sinifdənxaric tədbirlər vasitəsilə müasir gənclərin dünyagörüşünü formalaşdırmaq, əxlaqi-etik baxışlara yiyələnməsinə kömək etmək üçün yollar araşdırılır. Məktəblərdə disputların və digər sinifdənxaric tədbirlərin təşkil edilməsinin vacibliyi vurğulanır.

***Açar sözlər:*** *Azərbaycan gəncləri, disput, təlim-tərbiyə, mühakimə, şagird, mübahisə, mühakimə, əhəmiyyət*

**Резюме.** В статье говорится о том, что национальные ценности и нравственные качества имеют важное значение в жизни современной азербайджанской молодежи. С этой целью изучаются пути формирования мировоззрения современной молодежи посредством внеклассных мероприятий, организуемых со старшеклассниками в средних общеобразовательных школах, способствующих овладению нравственно-этическими взглядами. Подчеркивается важность организации диспутов и других внеклассных мероприятий в школах.

***Ключевые слова:*** *Азербайджанская молодежь, диспут, обучение-воспитание, суждение, ученик, спор, суждение, значение*

**Summary.** The article says that national values and moral qualities are important in the life of modern Azerbaijani youth. For this purpose, the ways of forming the worldview of modern youth are studied through extracurricular activities organized with high school students in secondary schools, contributing to the mastery of moral and ethical views. The importance of organizing debates and other extracurricular activities in schools is emphasized.

***Key words:*** *azerbaijani youth, dispute, education, judgment, student, dispute, judgment, meaning*

Müasir Azərbaycan gənclərinin həyatında milli dəyərlər və mənəvi keyfiyyətlər mühüm əhəmiyyət kəsb edir. Ölkəmizin orta ümumtəhsil məktəblərində yuxarı sinif şagirdləri ilə təşkil edilən Azərbaycan gənclərinin vasitəsilə xalqımızın tarixi keçmişini, milli kökünü, ədəbiyyatını, mədəniyyətini dərindən öyrətmək üçün onlarda böyük maraq yaradılmalıdır. Hazırkı şəraitdə gənclərin həyatı maraqlı, çoxcəhətlidir, çünki onu müxtəlif məsələlər – dövrümüzün problemləri, bilik və mədəniyyətə yiyələnmək səyi, yaşamaq və işləmək idealı, habelə digər arzular düşündürür. Məktəb kollektivinin vəzifəsi şagirdlərə mühakimə yürütmək, mübahisə etməyi öyrətmək, onların dünyagörüşünü formalaşdırmaq, əxslaqi-etik baxışlara yiyələnməsinə kömək etməkdən ibarətdir.

Məlumdur ki, şagirdlər təhsil müddətində elmlərin əsaslarına yiyələnməklə yanaşı, musiqiyə, mütaliəyə, kinoya, ictimai-faydalı əməyə, elmi və kütləvi işlərə də maraq göstərirlər. Uşaqların tərbiyə olunmasında məktəbin müstəsna dərəcədə böyük rolu var. Məktəb gəncləri cəmiyyət üçün faydalı olmaq, xalqa lazım olan sərvətlərin istehsalında fəal iştirak etmək ruhunda tərbiyə etməlidir. Gənclərin dünyagörüşünün əsasları, əməksevərlik, Vətənin müdafiəsinə hazır olmaq, milli ləyaqət, düzlük, doğruçuluq və yoldaşlıq, ictimai borca şüurlu münasibət, fəallıq, müstəqillik və digər keyfiyyətlər məktəbdə formalaşır. Lakin təlimin əsas təşkilat forması olan dərsin təlim-tərbiyə işində nə qədər böyük rolu olsa da, bu forma ilə kifayətlənmək olmaz. Onları maraqlandıran bütün məsələlərlə müəllimlər yalnız dərs zamanı məşğul ola bilməz. Bunun üçün sinifdənxarıc tədbirlərdən geniş və düzgün istifadə edilməlidir

Sinifdənxaric iş – məktəbin apardığı təlim-tərbiyə prosesinin zəruri tərkib hissəsidir. Bu iş dərsdənkənar vaxtda ya pedaqoji kollektivin üzvləri, ya da müxtəlif növ şagird özünüidarə təşkilatları, uşaq və gənclər təşkilatının rəhbərləri təşkil edib həyata keçirirlər.

Sinifdənxaric tədbirlər geniş və çoxmənalı bir anlayış olub, tərkibinə, məqsədinə, formasına, keçirilmə üslubuna və rəhbərlik qabiliyyətinə görə müxtəlif işləri özündə birləşdirir. Bu tədbirlər müxtəlif formalarda: fərdi, qrup-kollektiv, kütləvi, klub və cəmiyyət formasında təşkil olunur. Son vaxtlar tərbiyə metodları sırasına debat, interaktiv və s. metodlar daxil olmuşdur. Bu metodlar içərisində disput xüsusi yer tutur.

Disput latın sözü olub, mühakimə yürütmək, mübahisə etmək deməkdir [4, s.5]. Mübahisə sözündə nə qədər müxtəlif mənalar var – kiçik həyati toqquşmalar, özünüdərketmə, dünyanın yaranması sirri... “Həqiqət mübahisədən doğur” fikri tarixdə özünü çətinliklə təsdiq edib, müxtəlif dövrlərdə və müxtəlif mədəniyyətlərdə müxtəlif cür başa düşülürdü.

Mübahisə – problemin ümumi müzakirəsi, öz fikirlərini isbat etmək və başqasının fikrini təkzib etmək prosesində nəzər-nöqtələrinin toqquşması deməkdir. Mübahisə bu və ya digər bir məsələnin şifahi müsabiqəsidir. Burada hər bir kəs öz fikrini müdafiə edir. İkinci mənada mübahisə dialoqun elə bir formasıdır ki, bu mübahisə gələcəkdə hətta iştirakçıların münasibətlərinin pozulmasına gətirib çıxarır. Bu, iştirakçılarda müzakirə olunan məsələyə daha dərindən müdaxilə etmək, müzakirəni daha ətraflı aparmaq arzusu yaradır. Mübahisə aparmaq məharəti bizim hər birimiz üçün böyük məna kəsb edir, buna görə də mübahisəni ona yaxın olan “disput”, “diskussiya”, “polemika” kimi anlayışlarla müqayisə etmək məqsədəuyğundur. Disputdan söhbət edərkən, burada əxlaqi, siyasi, ədəbi, elmi, professional və başqa problemlərin kollektiv müzakirəsi nəzərdə tutulur.

Disput – hər hansı bir problemin geniş auditoriya qarşısında müzakirəsi, sualların cavabının düzgün həlli və ya bu həllin yollarının aydınlaşdırılmasıdır. Disput məktəbdə yuxarı sinif şagirdləri ilə sinifdənkənar aparılan əsas iş formalarından biri, canlı və fəal fikir mübadiləsi, tərbiyə və mədəni inkişaf məsələlərinin kollektiv müzakirəsi metodudur. Bu, tədris proqramları çərçivəsindən kənar, məktəbdən və dərsdənkənar vaxtda keçirilən, müxtəlif təlim-tərbiyəvi tədbirlərdir.

Disputda iştirakçıların çoxu müstəqil olaraq tribunadan və yaxud öz yerlərindən çıxış edirlər, başqalarının çıxışlarına öz fikirlərini əl çalmaq, replika və etiraz nidaları ilə bildirirlər. Qoyulan məsələnin müzakirəsi kollektiv şəkildə aparılır, mübahisələr isə yoldaşlıq xarakteri daşıyır.

Disputlar ən çox tədris kollektivi ilə aparılır. Bu üsul gənc nəsildə təşəbbüskarlıq, müstəqillik, təşkilatçılıq vərdişlərinin, ictimai fəallığın, milli ləyaqətin, Vətənə məhəbbətin, düzlüyün, doğruçuluğun və s. keyfiyyətlərin tərbiyəsinə təkan verir.

Məktəblilərlə keçirilən disputun əhəmiyyəti nədən ibarətdir?

1. İlk növbədə, qeyd etmək lazımdır ki, disputlar tədris işi ilə düzgün uyğunlaşdırılmalıdır. Bu tədbirlər şagirdlərin asudə vaxtlarını əhatə etdikdə tərbiyəvi təsirlər daha güclü olur. Burada böyük ustalıq, cəldlik, səlis danışıq qabiliyyəti, düşüncə tələb olunur;

2. Valideynlərin böyük əksəriyyətinin işlə məşğul olduqları bir vaxtda məktəbdə disputların təşkili şagirdlərə pedaqoji təsiri gücləndirməklə yanaşı, onları mənfi təsirlərdən uzaqlaşdırır;

3. Disputlar şagirdlərdə mənəvi keyfiyyətləri formalaşdırır, asudə vaxtdan səmərəli istifadə etmək qabiliyyətini artırır;

4. Bu tədbirlərdə şagirdlərin mənəvi müxtəlif maraqları formalaşır, uyğunlaşır.

Disputlar şagirdləri düşündürməklə, fəallaşdırmaqla bərabər, həm də onları ölkəmizin tarixi ilə tanış edir, vətən uğrunda mübarizəyə ruhlandırır, müxtəlif fakt və hadisələri təhlil etməyə, mübahisələr aparmağa sövq edir. Burada şagirdlər müxtəlif əxlaqi kateqoriyalar haqqında öz fikirlərini sərbəst deməyə çalışırlar. Disputlar yuxarı sinif şagirdlərində maraq yaradır, ətrafda baş verən hadisələrin gerçəkliyini dərk etməyə, əxlaq normalarını mənimsəməyə, mənəvi ideyalara yiyələnməyə imkan verir.

Disput şagirdlərin doğma vətəninin tarixini, ayrı-ayrı şəxsiyyətlərin həyat və fəaliyyətini öyrənməyə, məruzələr hazırlamağa həvəsini artırır, respublikada və dünyada baş verən ictimai-siyasi maraqlarını gücləndirir. Şagirdlər gördükləri, müşahidə etdikləri bu və ya digər hadisələri müzakirə etməyə, onlara öz münasibətlərini bildirməyə, düzgün mühakimə yürütməyə can atırlar. Onlar elm, texnika, incəsənət yenilikləri ilə tanış olur, ölkəmizdə baş verən hadisələrin mahiyyətini, məzmununu dərk edir. Onlarda iqtisadi və hüquqi təfəkkür inkişaf edir, milli şüur və milli ləyaqət, milli iftixar hissi güclənir. Məktəblərdə təşkil edilən müxtəlif məzmunlu disputlar şagirdlərin elmi dünyagörüşünün zənginləşməsinə, mənəvi keyfiyyətlərin formalaşması və təkmilləşməsinə böyük şərait yaradır.

Müasir dövrdə şagirdlərin əqidəsi, dünyagörüşü yalnız ailə və məktəbin deyil, habelə müxtəlif amillərin təsiri ilə formalaşır. Televiziya, radio verilişləri, müasir filmlər, qəzet və jurnallar, internet səhifələri, kompüter oyunları, insanlarla aparılan söhbətlər və s. şagirdlərin tərbiyəsinə müəyyən təsir göstərir. Elm, texnika və incəsənətin bu və ya digər sahəsi ilə daha çox maraqlanan şagirdləri elmi axtarışlara cəlb etmək, onlara maraq göstərdikləri sahəyə aid tapşırıq vermək, ədəbiyyatlar göstərmək, sinifdənkənar tədbirlərdə fəal iştirakını təmin etmək çox faydalıdır. Hazırkı dövrdə cəmiyyətdə baş verən və gənclərin mənəviyyatına mənfi təsir göstərən halları aradan qaldırmaq, şagirdləri milli-mənəvi və vətənpərvərlik ruhunda tərbiyə etmək, Azərbaycanın tarixini, dilini, ədəbiyyatını, mədəniyyətini dərindən öyrənməyə sövq etmək, onlarda müsbət keyfiyyətlər aşılamaq çox vacib məsələlərdən biridir. Bütün bunlar şagirdlərin milli şüurunun formalaşmasına təsir edərək onların xalqımızın min illər boyu yaradıb, nəsildən-nəslə ötürdüyü yüksək mənəvi keyfiyyətlər əsasında tərbiyə edilərək, layiqli vətəndaş kimi yetişməsinə kömək edir. Bu məsələlərin düzgün təhlil edilməsi və anlaşılmasında disputların böyük rolu vardır.

Disputlar şagirdlərin mənəvi tərbiyəsinin, düzgün davranışlarının formalaşmasına, onların nitq və məntiqi təfəkkürünün inkişafına böyük təsir edir.

Tərbiyə prosesində şəxsiyyətə hərtərəfli təsir göstərmək lazımdır. Həyatda öz mövqeyini tutmaq hər bir gəncin arzusudur. Məktəblinin mənəvi keyfiyyətlərini formalaşdırmaqdan ötrü ona əxlaqi biliklər, ideya-siyasi baxışlarla təsir edərək, onu cəmiyyətdə baş verən hadisələrin səbəbləri haqqında düşünməyə təhrik etmək lazımdır. Baxışlar, cəmiyyətin inkişaf qanunlarının obyektivliyi haqqında təsəvvürlər şagirdlərdə məktəb illərində formalaşır. Həyatda fəal mövqe tutmaq üçün hadisələrin dərinliyinə nüfuz etmək və onların mahiyyətini dərk etmək lazımdır. Məsələyə bu baxımdan yanaşıldıqda məktəblilərin elmi, əxlaqi-etik, ideya-siyasi biliklərə yiyələnməsi mühüm yer tutur.

Pedaqogika elminin müasir inkişaf mərhələsi yuxarı sinif şagirdlərinin mənəvi tərbiyə probleminə də yönəlir ki, bu da şagirdlərin elmi dünyagörüşünün formalaşmasına birbaşa təsir göstərir. Müasir cəmiyyətdə, iqtisadi və siyasi islahatlar şəraitində şagirdlərin tərbiyə olunması daha da gücləndirilir. Bu isə gənc nəslin sosial həyatının dəyişməsinə gətirib çıxarır. Gənclərdə çətinlikləri aradan qaldırmaq bacarığını, məsuliy-

yət hissini, əməyə mənəvi tələbatı inkişaf etdirmək, onlarda düzlük, doğruçuluq, vicdan, namus, kollektivçilik, vətəndaşlıq, namus, təvazökarlıq kimi xüsusiyyətləri formalaşdırmaq çox vacibdir.

Müasir dövrdə yuxarı sinif şagirdləri ilə insanın mənəvi keyfiyyətləri və onun müasir həyatda tutduğu mövqe haqqında söhbətlər, diskussiya və disputların keçirilməsinin əhəmiyyəti olduqca böyükdür. Gənc nəslə öz həyat tərzini, dünyagörüşünü formalaşdırmaq, onlara həm savadlı, həm də mədəni olmaqla yanaşı, əvvəlki nəslin tərbiyəsini müasir baxışlar və hadisələrlə uyğunlaşdırmaqda kömək etmək lazımdır. XXI əsrin gəncləri daha səmimi, cəsarətli, sərbəst, qətiyyətli və romantikdirlər. Bununla belə, onlar qədim adət-ənənələrimizə hörmətlə yanaşır, özünü və ətrafdakıları başa düşməyə can atırlar.

Məktəblilərin təlim-tərbiyəsində disput mühüm yer tutur və özünün məqsədi, məzmunu, ideya istiqaməti cəhətindən təlim prosesinin davamıdır. Disputlar məktəblə həyat arasında əlaqə yaradır. Belə bir tədbirin tərbiyəvi əhəmiyyəti ondan ibarətdir ki, o, şagirdlərin şəxsiyyətinin inkişafına, onların dünyagörüşünün formalaşmasına, onlarda əxlaqi sifətlərin tərbiyə olunmasına, müəyyən biliklər sistemi ilə silahlanmasına, psixi proseslərin inkişafına və təkmilləşməsinə kömək edir. Disput məktəbin özünün təşkil edib keçirdiyi dərsdənkənar məşğələ və ya tədbir, məktəbin təlim-tərbiyə işinin tərkib hissəsi olub, gənc nəslin həyata hazırlanmasında, onların dünyagörüşünün inkişaf etməsində geniş imkanlar yaradır.

Yuxarı sinif şagirdləri ilə disputlar müəyyən əxlaqi məsələ haqqında rəy mübadiləsi şəklində aparılır. Belə mübahisələr şagirdlərin əxlaqi görüşlərinə və davranışlarına əhəmiyyətli təsir göstərən iş formalarındandır. Disputlar yanlış əxlaqi təsəvvürlərlə düzgün əxlaqi təsəvvürləri qarşılaşdırmağa və müxtəlif əxlaqi görüşləri birbiri ilə müqayisə ilə onların hansının düzgün olmasını müəyyən etməyə imkan verir. Burada çox müxtəlif rəylər, bəzən hətta bir-birinə zidd fikirlər ifadə olunur. Lakin bundan ehtiyat etmək lazım deyil, hər bir şagirdə imkan verilməlidir ki, müzakirə olunan əxlaqi məsələyə öz münasibətini bildirsin, yoldaşlarının rəyi ilə razılaşmadıqda onu inkar edən sübutlar üzərində düşünsün, həmin rəyin düzgün olmadığını sübut etməyə, öz fikrini müdafiə etməyə çalışsın. Disput zamanı rəylərin toqquşması onların tədricən dürüstləşməsinə səbəb olur. Bütün bunlar müzakirə olunan əxlaqi məsələ üzərində hər bir şagirdi dərindən düşünməyə, aydın olmayan məsələləri aydınlaşdırmağa təhrik edir ki, bu da bir çox məsələlər üzrə əxlaqi görüş və əqidənin təşəkkül etməsinə kömək edir.

Disputlar gənclərin dünyagörüşünün formalaşmasına kömək etməklə yanaşı, həm də onlarda prinsipiallıq tərbiyə edir, düzgün mülahizə yürütməyə, dilin səlisləşməsinə təsir göstərir. Disputun maraqlı cəhəti budur ki, burada bu və ya digər məsələ haqqında fikirlər toqquşur, şagirdlərə öz dünyagörüşünü aşkar etmək və eləcə də başqalarının hərəkətlərinə düzgün qiymət vermək qabiliyyətlərinə malik olmaq imkanı verilir. Sərbəstlik nəticəsində şagird necə hərəkət edəcəyini şüurlu surətdə dərk edir və bu ideyanı həyata keçirmək üçün onda arzu və cəhd oyanır. Şagird disputda öz təsəvvürlərini bu və ya digər məsələ ətrafında cəmləşdirir və mövzu ilə əlaqədar təcrübələrini, təşəbbüslərini yaddaşında bərpa edir, razılaşmadığı məsələlər haqqında düşünür, öz fikirlərini inandırıcı dəlillərlə sübut etməyə çalışır. Bu da müzakirə olunan hər hansı bir əxlaqi məsələ barəsində şagirdin görüş dairəsinin inkişaf etməsinə kömək edir.

Tərbiyə prosesində şəxsiyyətə hərtərəfli təsir göstərmək lazımdır. Həyatda öz mövqeyini tutmaq hər bir gəncin arzusudur. Məktəblinin mənəvi keyfiyyətlərini formalaşdırmaqdan ötrü, ona əxlaqi-etik biliklər, ideya-siyasi baxışlarla təsir edərək, onu cəmiyyətdə baş verən hadisələrin səbəbləri haqqında düşünməyə təhrik etmək lazımdır. Baxışlar, cəmiyyətin inkişaf qanunlarının obyektivliyi haqqında təsəvvürlər şagirdlərdə məktəb illərində formalaşır. Həyatda fəal mövqe tutmaq üçün hadisələrin dərinliyinə nüfuz etmək və onların mahiyyətini dərk etmək lazımdır. Məsələyə bu baxımdan yanaşıldıqda məktəblilərin elmi, əxlaqi-etik, ideya-siyasi biliklərə yiyələnməsi mühüm yer tutur.

M. Mehdizadə "Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları" kitabında yazır: "Elmi mübahisə mənası verən disput ümumtəhsil məktəblərində çox zaman tərbiyə metodu kimi, bu və ya digər əxlaqi görüşlər haqqında şagirdlərin (yuxarı siniflərdə) fəallaşdırılmasına kömək edir ki, bu da təlimin məqsədlərindən biridir" [4, s. 135].

H. Həsrətovun "Disputlara hazırlıq və onun keçirilməsi metodikası" məqaləsində gənclər arasında təşkil edilmiş disputlardan danışılır. Müəllif disputa hazırlıq metodikasını, disputun keçirilməsi metodikasını qısa şəkildə göstərir [2].

Yuxarı sinif şagirdləri ilə disput təşkil edərkən, onları fəal iştirak etmək üçün qabaqcadan ciddi hazırlamaq lazımdır. Şagird disputun keçirilməsi qaydasını bilməlidir. Disput konkret plan əsasında və əvvəlcədən müəyyən olunmuş vaxtda keçirilməlidir.

Şagirdlər disputların müxtəlif mövzularda təşkilinə daha çox maraq göstərirlər. Disputda müzakirə olunan məsələnin inandırıcı olması şagirdlərə verilən sualların məqsəd və məzmunundan çox asılıdır. Sualların düzgün qoyuluşu şagirdləri fəallaşdırır, onları həyati fakt və müşahidələrə, atalar sözlərinə müraciət etməyə sövq edir.

Disputun mövzusu kinofilmlə və ya kitabla bağlıdırsa, onun əhəmiyyəti olduqca böyükdür. Müşahidələr göstərir ki, bədii və elmi-kütləvi ədəbiyyatlardan istifadə edildikdə disput daha canlı və emosional olur. Bədii ədəbiyyat şagirdlərin əxlaqi tərbiyə, vərdiş və davranış normaları qazanmalarına kömək edir. Onlarda əxlaqi anlayışlar, hiss və normalar ayrı-ayrı adamların təsirindən daha çox bədii əsərlərin, bədii obrazların təsiri nəticəsində inkişaf edir.

Disputda kinofilmlərin, sənədli filmlərin nümayişi də şagirdlərin mənəvi tərbiyəsinə müsbət təsir göstərir. Məsələn, erməni işğalına məruz qalmış torpaqlarımız, əsrlər boyu qorunub saxlanılmış memarlıq abidələrinin məhv edilməsi, xalqımıza qarşı törədilən amansız vəhşiliklər haqqında çəkilmiş sənədli filmlərin nümayişi gənclərdə Vətən torpağını düşmən tapdağından xilas etmək arzusu yaradır, gəncləri hərbi xidmətə hazırlamaq, onlara həyatda dözümlü, intizamlı, mətanətli və mərd olmaq kimi keyfiyyətləri aşılayır.

Disputda şagirdlərin görkəmli şəxsiyyətlərlə görüşlərinin təşkil olunması da təlim-tərbiyə işinə əhəmiyyətli təsir göstərir. Buraya, həmçinin milli qəhrəmanlar, əmək adamları da dəvət olunur. Onların söhbətlərini, həyatda baş vermiş maraqlı əhvalatlarını dinlədikcə şagird bir anlıq özünü onun yerinə qoyur, iftixar hissi keçirir, xəyallarında məşhurlaşır, hamıya nümunə olur. Bütün bunları o, həyatda görmək istəyir, qarşısına məqsəd qoyur, kim olmaq, hansı sənəti seçmək, kimin yolunu davam etdirmək və s. kimi suallar qarşıya çıxır. Bu suallara cavab axtaran şagird öz düşündüklərini bölüşdürür, müstəqil olaraq fikrini ətrafdakılara çatdırmağa nail olur.

Disputda yuxarı sinif şagirdləri əxlaqi təsəvvürlər, anlayışlar, mühakimələr və əqli nəticələrlə qarşılaşır, onları öz hərəkət və davranışlarında göstərməyə çalışırlar. Məktəbli, adətən, öz hərəkət və davranışından daha çox başqasının hərəkətini, davranışını və s. münasibətləri qiymətləndirir.

Disputlarda gənclərin mənəvi tərbiyəsi geniş yer tutmalıdır. Burada başlıca vəzifə gənclərdə mənəvi əqidəni formalaşdırmaqdır. Bunun üçün disputda həyatdan müsbət nümunələr, nəsihətlər gətirmək və yaxud onu incəsənət, əxlaq mövzusunda keçirmək vacibdir.

**Problemin aktuallığı.** Pedaqogika elminin müasir inkişaf mərhələsi yuxarı sinif şagirdlərinin mənəvi tərbiyə probleminə də yönəlir ki, bu da şagirdlərin elmi dünyagörüşünün formalaşmasına birbaşa təsir göstərir.. Bu isə gənc nəslin sosial həyatının dəyişməsinə gətirib çıxarır. Gənclərdə çətinlikləri aradan qaldırmaq bacarığını, məsuliyyət hissini, əməyə mənəvi tələbatı inkişaf etdirmək, onlarda düzlük, doğruçuluq, vicdan, namus, kollektivçilik, vətəndaşlıq, təvazökarlıq kimi xüsusiyyətləri formalaşdırmaq çox vacibdir.

**Problemin elmi yeniliyi.** Disputlar gənclərin dünyagörüşünün formalaşmasına kömək etməklə yanaşı, həm də onlarda prinsipiallıq tərbiyə edir, düzgün mülahizə yürütməyə, dilin səlisləşməsinə təsir göstərir. Disputlarda gənclərin mənəvi tərbiyəsi geniş yer tutmalıdır. Burada başlıca vəzifə gənclərdə mənəvi əqidəni formalaşdırmaqdır. Bunun üçün disputda həyatdan müsbət nümunələr, nəsihətlər gətirmək və yaxud onu incəsənət, əxlaq mövzusunda keçirmək vacibdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ümumtəhsil məktəblərində həm tədris prosesinin təşkili prosesində, həm də sinifdənxaric tədbirlərin keçirilməsi zamanı istifadə etmək olar.

**Ədəbiyyat:**

1. Abbasov, A.H. Pedaqogika. / A.H. Abbasov, H.Ə. Əlizadə. – Bakı: Renessans, – 2000, – 202 s.
2. Abbasov, A.H. Ailə pedaqogikası: Ali təhsil müəssisələri üçün dərslik. – Bakı: Mütərcim, – 2019, – s. 212-215.

3. Həsrətov, H. Disputlara hazırlıq və onun keçirilməsi metodikası // Gənc fəhlə, – 1981, – №6, – səh. 26-28.
4. Mehdizadə, M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. – Bakı: Maarif, – 1982, – 381 s.
5. Talıbov, Y.P. Məktəbdə disputların təşkili və keçirilməsi. – Bakı: Maarif, – 1970, – 53 s.

**E-mail:** Shefeq.2011@mail.r
**Rəyçilər:** *ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva,**
*ped.ü.fəls.dok.* **X.A. Talıbova**
**Redaksiyaya daxil olub:** 15.04.2022.